*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 373-378*
ISSN 2224-9257

https://doi.org/10.62837/2026.2.373

**NİGAR QURBANOVA**
*Bakı Dövlət Universitetinin magistrantı*
E-mail*:* *nigarqurbanova580@gmail.com*
Əlaqə nömrəsi: 051-434-54-43
Orcid: 0009-0001-8756-2721

# CƏLİL MƏMMƏDQULUZADƏ YARADICILIĞINDA BƏDİİ TİP VƏ YENİLİK AXTARIŞLARI

**XÜLASƏ**

Azərbaycan realist nəsrinin formalaşmasında mühüm rol oynayan Cəlil Məmmədquluzadənin hekayə yaradıcılığı bədii tip və yenilik axtarışları baxımından xüsusi əhəmiyyət kəsb edir. Yazıçı klassik ədəbi ənənələrə söykənərək satirik realizm müstəvisində yeni obrazlar və ifadə formaları yaratmışdır. Onun hekayələrində formalaşan bədii tiplər fərdi xüsusiyyətlərlə yanaşı, ümumiləşdirilmiş ictimai məzmun daşıyır. Mirzə Cəlil bu tiplər vasitəsilə dövrün sosial-mənəvi problemlərini, gerilik və ziddiyyətləri tənqidi gülüşlə dərin bədii səviyyədə ifadə etmişdir.

**Açar sözlər:** Cəlil Məmmədquluzadə, bədii tip, tənqidi gülüş, realist nəsr, hekayə

**NIGAR GURBANOVA**

## ARTISTIC TYPES AND THE SEARCH FOR INNOVATION IN THE WORKS OF JALIL MAMMADGULUZADEH

**ABSTRACT**

Jalil Mammadguluzadeh’s short-story writing, which played a significant role in the formation of Azerbaijani realist prose, is of particular importance in terms of artistic character construction and the search for innovation. Relying on classical literary traditions, the writer created new character types and expressive forms within the framework of satirical realism. The artistic characters formed in his stories possess both individual traits and a generalized social significance. Through these characters, Mammadguluzadeh critically and profoundly articulated the social and moral problems, backwardness, and contradictions of his time by means of satirical humor.

**Keywords:** Jalil Mammadguluzadeh, artistic character, satirical humor, realist prose,story

**РЕЗЮМЕ**

Азербайджанская реалистическая проза во многом сформировалась благодаря творчеству Джалила Мамедкулизаде, чьё новаторское мастерство в жанре рассказа привлекает особое внимание с точки зрения художественных типов и поисков новых выразительных форм. Опираясь на классические литературные традиции, писатель в русле сатирического реализма создал оригинальные образы и способы художественного выражения. Сформированные в

его рассказах художественные типы, наряду с индивидуальными чертами, несут в себе обобщённое общественное содержание. Посредством этих типов Мирза Джалил на высоком художественном уровне, с помощью критического смеха, выразил социально-нравственные проблемы своей эпохи, её отсталость и внутренние противоречия.

**Ключевые слова:** Джалил Мамедкулузаде, художественный тип, сатирический смех, реалистическая проза, рассказ

***

## Giriş

Azərbaycan realist nəsrinin təşəkkül və inkişaf mərhələsində Cəlil Məmmədquluzadənin yaradıcılığı xüsusi mərhələ təşkil edir. Yazıçı klassik ədəbi ənənələrə söykənməklə yanaşı, mövcud bədii qəlibləri sarsıdan, yeni ifadə vasitələri və bədii tiplər yaradan sənətkar kimi çıxış etmişdir. Onun hekayələri yalnız dövrün ictimai-siyasi və mənəvi reallıqlarını əks etdirməklə kifayətlənmir, eyni zamanda bədii düşüncədə yenilik axtarışlarının parlaq nümunəsi kimi diqqəti cəlb edir. Ədib ənənəvi obraz sistemini və süjet quruluşunu dərindən mənimsəyərək, onları satirik realizmin tələblərinə uyğun şəkildə yeniləşdirmiş, bədii tip yaratmaq sahəsində orijinal yanaşmalar ortaya qoymuşdur. Onun hekayələrində formalaşan bədii tiplər fərdi xarakter daşımaqla yanaşı, ümumiləşdirilmiş ictimai mahiyyətə malikdir və bu cəhət yazıçının sənətində yenilikçi mövqeyin əsas göstəricilərindən biridir. *"Ədəbi obrazın mühüm üstünlüyü onun dünyanı zaman hüdudsuzluğunda göstərə bilməsidir, zamanın bitməzliyini və tükənməzliyini təsvir edə bilməsidir"* [ 2, s.245 ]. Müəllif cəmiyyətin müxtəlif sosial təbəqələrini təmsil edən bu tiplər vasitəsilə dövrün mənəvi aşınmasını, geriliyi və ziddiyyətləri kəskin şəkildə ifşa etmişdir. Cəlil Məmmədquluzadə Azərbaycan bədii nəsrində xəlqilik meyillərini gücləndirərək ədəbiyyatı xalq həyatına daha da yaxınlaşdırmışdır. Onun əsərlərində sadə insanların gündəlik qayğıları, ictimai ədalətsizliklər, savadsızlıq, fanatizm və mənəvi aşınma tənqidi realizmin güclü ifadə vasitələri ilə təqdim olunur. Yazıçının tənqidi gülüşü səthi və əyləncəli xarakter daşımır; əksinə, bu gülüş dərin ictimai məzmun, ciddi ideya yükü və satirik pafosla zəngindir.Ümumiyyətlə, Cəlil Məmmədquluzadə tip yaratmaq sahəsində Qurbanəli bəy, Novruzəli, Usta Zeynal kimi yaddaqalan obrazlar meydana gətirmişdir. "*Tipik obraz yaratmaq üçün ədib həyatdan götürdüyü faktları, insanları və hadisələri təhlildən keçirir, hadisələrə nisbətən daha geniş məzmun kəsb edən konkret bədii obraz yaradılmasında istifadə edir"* [5, s. 117 ]. Bu tiplər ayrı-ayrı fərdlər olmaqla yanaşı, cəmiyyətin müəyyən sosial təbəqələrinin ümumiləşdirilmiş bədii ifadəsidir. Bu obrazlar vasitəsilə feodal-patriarxal münasibətləri, məmur özbaşınalığını, xalqın savadsızlıq və gerilik girdabında qalmasını ifşa edir. Onun yaratdığı bədii tiplər milli nəsrin inkişafında davamlı təsir gücünə malik olmuş, sonrakı ədəbi prosesə ciddi istiqamət vermişdir. Mirzə Cəlil

gülüş vasitəsilə cəmiyyətin ağrılı problemlərini açır, oxucunu düşündürür və mənəvi mövqe tutmağa sövq edir.

***

**Əsas hissə**

"Bədii tip və yenilik axtarışları" problemi Cəlil Məmmədquluzadə hekayələrinin poetikasını anlamaq baxımından mühüm əhəmiyyət kəsb edir. Bu aspekt yazıçının ənənə ilə novatorluq arasında qurduğu yaradıcı tarazlığı, bədii obrazın yeni məzmun və forma keyfiyyətləri qazanmasını izləməyə imkan verir. Məhz bu baxımdan, hekayələrində bədii tipin formalaşma prinsipləri və yenilik axtarışları milli nəsrin inkişafında mühüm mərhələ kimi dəyərləndirilir. "*Tip öz varlığında fərdi ilə ümumini, milli ilə bəşərini birləşdirdiyi kimi həm də mənsub olduğu xalqın tarixi taleyini ədəbiyyata gətirir"* [8, s.115].

Tədqiqatçı Firudin Hüseynovun qeyd etdiyi kimi, C. Məmmədquluzadə portretçilik yolu ilə yaratdığı tipləri daha da dolğunlaşdıran və bütünləşdirən sənətkardır". Bu fikir yazıçının bədii tip yaratmaq sahəsindəki ustalığını dəqiq ifadə edir. Mirzə Cəlilin hekayələrində portret təsviri yalnız zahiri cizgilərin təqdimatı ilə məhdudlaşmır, obrazın daxili aləmini, psixoloji durumunu və sosial mövqeyini açan mühüm bədii vasitəyə çevrilir.Yazıçı portret detalları vasitəsilə tipik xarakterlər yaradır və onları müəyyən ictimai mühitin daşıyıcısı kimi təqdim edir, yaradıcılığı dil-üslub fərqliliyi, mövzu genişliyi, sosial problemlərin kəskinliyi və bədii tip yaratmaq məharəti ilə səciyyələnir. "*Realizmə qədər ədəbi obrazın fərdi yaddaşla bağlılığı və fərdi yaddaş baxışı kimi özünü büruzə verməsi kortəbii, mexaniki şəkildə baş verirdi. Lakin realist yaradıcılıqda ədəbi obrazın fərdiliyi müəlliflərin şüurlu ədəbi prinsipi kimi özünü büruzə verir"* [ 2, s. 48 ].

Mirzə Cəlilin sənətkarlıq qüdrəti, hər şeydən əvvəl, hadisələrə soyuqqanlı və müşahidəçi mövqedən yanaşmasında təzahür edir. Yazıçı açıq didaktikadan və birbaşa mühakimələrdən qaçaraq, həyatın özünü, daha dəqiq desək, onun səciyyəvi detal və canlı parçalarını oxucuya göstərir. Bu üsul hadisələrin təsir gücünü artırır, oxucunun mühakimə və nəticə çıxarma imkanlarını genişləndirir. Müəllifin örtülü rəğbəti və gizli tendensiyalılığı bədii mətnin estetik dəyərini zəiflətmir, əksinə, onun ideya təsirini daha da gücləndirir. *"Təsvir olunan "kiçik" adamların xarakterləri vasitəsilə ədib insandan zamana (mühitə) bədii üsulu ilə yanaşma yolu seçərək dövrün, zamanın, ictimai mühitin xarakter və mənzərəsini, habelə onların mənəvi-psixoloji aləmini formalaşdıran şərtləri təqdim etmişdir"* [3, s.179 ].

"Poçt qutusu" hekayəsi ədibin novator axtarışlarının parlaq nümunəsidir. Yazıçı bu əsərdə Novruzəli obrazı vasitəsilə Azərbaycan kəndlisinin dözülməz yoxsulluq və hüquqsuzluq içində olan həyatını gülüş və yumorun saf aynasında canlandırır. Novruzəli həm fərdi xarakterə malik canlı obraz, həm də ümumiləşdirilmiş sosial tipdir. Onun savadsızlığı, sadəlövhlüyü və acizliyi təkcə şəxsi xüsusiyyətlər kimi deyil, dövrün ictimai reallığının nəticəsi kimi təqdim olunur.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 373-378*

*"Bu prinsiplə yanaşanda hekayədə Novruzəlini razı yox, yuxulayan, yatan yox, narazı, narahat və hətta üsyan edən, fəryad edən bir qəhrəman kimi səciyyələndirməyə əsas verən ciddi detal, işarə var"* [7, s.103]. Mirzə Cəlil bu obrazı yaratmaqla kəndli psixologiyasını, onun cəmiyyət qarşısında müdafiəsiz vəziyyətini yüksək bədii ustalıqla əks etdirir. "Poçt qutusu" hekayəsində seçilmiş ifadə forması janr baxımından da yenilik xarakteri daşıyır. Sadə süjet, məhdud məkan, lakin dərin ideya yükü əsəri hekayə janrının klassik nümunəsinə çevirir. Bu bədii forma məhz kəşf edildikdən sonra oxucuya sadə və adi görünür, halbuki onun arxasında böyük sənətkarlıq təcrübəsi və novator düşüncə dayanır. Cəlil Məmmədquluzadə bu əsərlə hekayə janrının imkanlarını genişləndirmiş və onu yüksək ideya-estetik səviyyəyə qaldırmışdır. *"Poçt əhvalatı Novruzəlinin şəxsiyyətini, daxili portretini yeni cizgilərlə zənginləşdirir, onun hansı ağılın, mənəviyyatın sahibi olduğunu tam aydınlığı ilə ortaya qoyur, onu bir bədii obraz kimi əsl tip, xarakter səviyyəsinə qaldırır"* [1, s. 426 ].

Hekayədə poçt qutusu obrazı yalnız məkan detalı kimi deyil, kəndli ilə dövlət mexanizmi arasındakı keçilməz səddi simvolizə edən bədii vasitə kimi çıxış edir. *"Hekayədə isə hadisələrin təfsilatı yox, detallar, ştrixlər əsasdır. Müəllif öz niyyət və məramını bu detal və ştrixlər əsasında irəli sürür"* [7, s.102]. Novruzəlinin bu qutu qarşısında yaşadığı çaşqınlıq və ümidsizlik sadə insanın poçt nədir bilməməklə yanaşı, poçtalyon kimdir onu belə bilmir. Bundan başqa Novruzəlinin hər sözündə xana yalvarması, "mən ölənə kimi sənə qulam" deməsi bu obraz haqqında məlumat verir. Avam olması ilə yanaşı, dindar bir kəndli olan bütün bəlaların səbəbi cahilliyindən olsa da, başına gələn bütün hadisələrin səbəbinə "bunlar hamısı Allahdandır" deyir. Bütün bunlar ümumiləşmiş yenilik axtarışı, yeni hekayə obrazlarının yaranmasının zəmini idi. Novruzəli obrazının cahil və avam kəndli tipi kimi təqdim edildiyi kimi, Usta Zeynal da Cəlil Məmmədquluzadə yaradıcılığında maarifçilikdən uzaq, stereotip və mövhumat təsəvvürlərinin təsiri altında formalaşmış xalq düşüncə tərzini əks etdirən səciyyəvi obrazlardan biridir. Əsərdə Usta Zeynal bir tərəfdən zəhmətkeş, xalqın içindən çıxmış usta kimi göstərilir, digər tərəfdən isə onun savadsızlığı, fanatik düşüncəsi və mövhumata bağlılığı cəmiyyətdə geniş yayılmış mənəvi naqisliklərin satirik ifadəsi kimi təqdim olunur. *"Təvəkkül fəlsəfəsi ilə Usta Zeynalın xəyalı nə qədər göylərdə pərvaz edirsə və bu pərvazla o maddi cəhətdən həyatın dibinə enirsə, Novruzəlinin bütün əməl, hərəkət və düşüncəsinin büsbütün torpağa bağlılığı onun maddi təminatının əsasında dayanır və o, İslam fanatiki yox, həqiqi Azərbaycan kəndlisi, təsərrüfatçılıq kimi yadda qalır"* [6, s.122]. Göründüyü kimi ədib yaratdığı obrazlarda, tiplərə fərqlilik, yenilik axtarışlarının davam etdirmiş və ümumiləşmiş surətlər çərçivəsində yaratmışdır. Hekayədə Usta Zeynalı qəflət yuxusunda saxlayan əsas amillər onun əqli-mənəvi geriliyi, savadsızlığı, dini fanatizmə aludə olması və həyatı yalnız dar məişət düşüncəsi ilə qiymətləndirməsidir. O, baş verən hadisələrin mahiyyətini anlamaq gücündə deyil. Usta Zeynal həyatın həqiqətlərinə ayıq baxmaq əvəzinə, hər şeyi köhnə inanclarla və qorxu ilə ölçür. Bu səbəbdən o, həm gülünc görünür, həm də

faciəli bir vəziyyətə düşür. Müəllif onun davranışlarını elə təqdim edir ki, oxucu Usta Zeynalın daxilindəki ziddiyyəti aydın görür: o, özünü "ağıllı", "düz yol adamı" sayır, amma əslində cəhalət onu idarə edir. Usta Zeynalın üç gün ərzində gördüyü işlər, söylədiyi sözlər və verdiyi qərarlar göstərir ki, o, sadəcə bir fərd deyil, bütün cəmiyyətin geridə qalmasının səbəblərini özündə daşıyan bir tipdir. *"Usta Zeynal bədii cəhətdən yüksək səviyyədə ümumiləşdirilmiş tipik bir obrazdır. Onun həyatı, varlığı müsəlman dünyasının əsrlərdən bəri gələn ağır, fəna dərdlərinin canlı,real tərcümanıdır"* [1, s. 429 ].

Ədibin yaratdığı digər hekayə qəhrəmanı Qurbanəli bəydir. Qurbanəli bəy obrazını yaradarkən milli şüurdan uzaqlaşmış, xalq və vətən anlayışına laqeyd münasibət göstərən, müstəmləkəçi idarə sisteminin tələblərinə uyğunlaşaraq ona xidmət etməyi üstün tutan bəy tipinin səciyyəvi cizgilərini ön plana çəkir. Yazıçı bu obraz vasitəsilə cəmiyyətin daxilində formalaşmış mənəvi aşınmanı, öz sinfi məsuliyyətini dərk etməyən sosial təbəqənin düşüncə və davranış modelini ümumiləşdirir. "*Tip, eyni zümrəyə məxsus olan xarakterlərin bir fərd, güclü bir şəxsin simasında ümumiləşdirməsidir"* [8, s. 114 ]. Qurbanəli bəyin zahiri mövqeyi ilə daxili mahiyyəti arasında kəskin ziddiyyət mövcuddur ki, bu da onun tipik xarakter kimi formalaşmasını şərtləndirir. Əsərdə təsvir olunan qısa zaman çərçivəsi – cəmi bir gün ərzində baş verən hadisələr Qurbanəli bəyin həyat tərzini, dünyagörüşünü və ictimai mövqeyini bütün təfərrüatı ilə üzə çıxarır. Müəllif hadisələrin inkişafı prosesində obrazın düşüncə məntiqini, mənəvi prioritetlərini və əqidə səviyyəsini ardıcıl şəkildə açır. Qurbanəli bəyin xarakterində diqqəti cəlb edən əsas cəhətlərdən biri onun davranışları ilə səsləndirdiyi fikirlər arasında uyğunluğun olmamasıdır. O, özünü hörmətli və nüfuzlu şəxs kimi göstərməyə çalışsa da, real əməlləri bu iddiaları təkzib edir. Bu daxili uyğunsuzluq obrazın mənəvi natamamlığını və saxtalığını daha qabarıq şəkildə üzə çıxarır. "*Siz ki, mənim sağlığına idiniz, qurban olsun sizə mənim canım. Mən ölənə kimi bu günü yadımdan çıxarmanam... Mən nəyəm ki, bu qədər xanım mənim sağlığıma içsin? Bu xanımların ayağının torpağı da ola bilmənəm"* [4, s.185 ]. Onun xarakterinin əsas cəhətlərindən biri insanlara münasibətdə tutduğu ikili mövqedir. Qurbanəli bəy özündən vəzifə və mövqe baxımından üstün olan şəxslərə – naçalnikə, pristava, eləcə də onların xanımlarına qarşı son dərəcə nəzakətli, ehtiramlı və yaltaq davranış nümayiş etdirir. Bu münasibət səmimi hörmətə deyil, şəxsi mənafeyə, öz mövqeyini qorumaq və mövcud sistem daxilində yerini möhkəmləndirmək istəyinə əsaslanır. Bunun əksinə olaraq, aşağı sosial təbəqəyə mənsub insanlara, xüsusilə öz nökərlərinə münasibətdə Qurbanəli bəy kobud, zorakı və təhqiramiz davranış sərgiləyir. Kərbalayi Qasımın yaşlı və zəhmətkeş bir insan olmasına baxmayaraq onun döyülməsi və alçaldılması obrazın daxili qəddarlığını, mənəvi yoxsulluğunu açıq şəkildə ortaya qoyur. Bu ziddiyyətli münasibətlər sistemi Qurbanəli bəyin xarakterindəki əxlaqi boşluğu və insani dəyərlərdən uzaqlığını daha qabarıq şəkildə üzə çıxarır. "*Mənim nökərim Kərbalayı Qasım lap biqeyrətdi. Mən indiyə kimi nə qədər eləmişəm ona bir qətərdə çaxır içində bilməmişəm"* [ 4, s. 180 ]. Bu xüsusiyyətlər Qurbanəli bəy obrazını təkcə fərdi xarakter kimi deyil, müəyyən bir sosial zümrənin səciyyəvi xüsusiyyətlərini

özündə cəmləşdirən bədii tip səviyyəsinə yüksəldirr. Cəlil Məmmədquluzadənin yenilikçi mövqeyi isə bu tipin yaradılmasında seçdiyi bədii üsullarda özünü göstərir. Hekayənin yekununda yazıçı Qurbanəli bəyə münasibətdə satirik mövqeyini daha da sərtləşdirir, daha dərin və amansız ifşa xarakteri alır. Beləliklə, Qurbanəli bəyin obrazı təkcə fərdi naqisliyin deyil, bütöv bir sosial zümrənin mənəvi tənəzzülünün bədii ifadəsinə çevrilir.

***

**Nəticə**

Cəlil Məmmədquluzadənin hekayə yaradıcılığı Azərbaycan realist nəsrində bədii tip probleminin elmi və estetik baxımdan yeni mərhələdə formalaşmasını təmin etmişdir.Mirzə Cəlilin yaratdığı Novruzəli, Usta Zeynal, Qurbanəli bəy kimi obrazlar təkcə fərdi xarakterlər deyil, müəyyən sosial təbəqələrin, ictimai düşüncə tərzlərinin və mənəvi problemlərin ümumiləşdirilmiş bədii ifadəsidir. Bu tiplər vasitəsilə yazıçı xalqın savadsızlıq, mövhumat, məmur özbaşınalığı, feodal-patriarxal münasibətlər və mənəvi aşınma girdabında qalmasını kəskin satirik prizmadan təqdim edir. Eyni zamanda, bu obrazlar oxucunu passiv müşahidəçi mövqeyində saxlamır, onu düşünməyə, mövqe tutmağa və ictimai reallıqlara tənqidi münasibət bəsləməyə sövq edir.Yazıçı açıq didaktikadan qaçaraq, həyat hadisələrini səciyyəvi ştrixlər və simvolik detallar vasitəsilə təqdim edir. Nəticə etibarilə, Cəlil Məmmədquluzadənin yaradıcılığında bədii tip və yenilik axtarışları milli nəsrin inkişafında davamlı və istiqamətləndirici rol oynamışdır. Onun yaratdığı obrazlar yalnız öz dövrünün sosial-mənəvi mənzərəsini əks etdirmir, eyni zamanda zaman hüdudlarını aşaraq ümumbəşəri məna daşıyır. Bu isə Mirzə Cəlilin Azərbaycan ədəbiyyatında tənqidi realizmin banilərindən biri kimi mövqeyini bir daha təsdiqləyir.

**İstifadə olunmuş ədəbiyyat**

1. Əlimirzəyev Xalid. Dahi sənətkar böyük vətəndaş (Cəlil Məmmədquluzadə həyatı, dövrü, mühiti, ədəbi-ictimai fəaliyyəti), Bakı: Elm və təhsil, 2010, 684 s.
2. Əliyev Rəhim. Ədəbiyyat nəzəriyyəsi, Bakı: Mütərcim, 2008, 360 s.
3. Qasımlı Ramiz. Cəlil Məmmədquluzada yaradıcılığında "kiçik" adam obrazının ictimai-bədii funksiyası, Bakı: Elm və təhsil, 2012, 216 s.
4. Məmmədquluzadə Cəlil. Əsərləri, Dörd cilddə, I cild, Bakı: Öndər, 2004, 664 s.
5. Məmmədov Məmməd. Cəlil Məmmədquluzadənin bədii nəsri, Bakı: Elmlər Akademiyası nəşriyyatı, 1963, 270 s.
6. Salamoğlu Təyyar. XIX əsrin sonu XX əsrin əvvəlləri Azərbaycan ədəbiyyatının aktual problemləri, Bakı: Elm və təhsil, 2021, 664 s.
7. Salamoğlu Təyyar. Cəlil Məmmədquluzadənin nəsri sosial mühit və zaman kontekstində, Bakı: Azərbaycan dili və ədəbiyyat tədrisi, №4, 2022, s. 93-108
8. Şəmsizadə Nizaməddin. Ədəbiyyat nəzəriyyəsi, Bakı: Proqres, 2012, 434 s.

**Rəyçi: professor Təhsin Mütəllimov**

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 2, 2026*
*Səh. 373-378*